**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**«Təsdiq edirəm»**
**filologiya fakültəsinin dekanı**
**fil.ü.f.d. E.H.Məmmədov**
**26 dekabr 2016**

**Ümumi dilçilik kafedrasının**
**elmi-tədqiqat işlərinin yerinə yetirilməsi haqqında**

# H E S A B A T I

**BAKI – 2016**

## 1. GİRİŞ.

Ümumi dilçilik kafedrasının müəllimləri dərs yükü ilə yanaşı hər il elmi-tədqiqat işlərini yerinə yetirirlər. Həmin elmi işlər dilçiliyin aktual problemləri üzrə üçillik plan (2015-2017) şəklində müəllimlər arasında bölünmüşdür. Bölüşdürülmə aşağıdakı strukturu əhatə edir.

## 2. STRUKTUR VƏ ŞTAT CƏDVƏLİ:

1. Rəcəbli Əbülfəz Əjdər oğlu, filologiya elmləri doktoru, professor – 1936-cı ildə anadan olmuşdur
2. Qasımova Şəkər Vəli qızı, filologiya üzrə fəlsəfə doktoru, dosent – 1935-ci ildə anadan olmuşdur
3. Məmmədov Məhəmməd Tofiq oğlu, filologiya üzrə fəlsəfə doktoru, dosent əvəzi – 1957-ci ildə anadan olmuşdur
4. Muradov Cavanşir Xankişi oğlu, filologiya üzrə fəlsəfə doktoru, dosent (0,5 ştat) – 1966-cı ildə anadan omuşdur
5. Mehdiyev Firuz Nadir oğlu, baş müəllim – 1948-ci ildə anadan olmuşdur
6. Həmzəyeva Elmira Hüseynağa qızı, filologiya üzrə fəlsəfə doktoru, baş müəllim (0,5 ştat) – 1959-cu ildə anadan olmuşdur
7. Məmmədova Svetlana Əliyulla qızı, baş müəllim – 1939-cu ildə anadan olmuşdur
8. Əliyeva Cəmilə Musa qızı, baş müəllim – 1946-cı ildə anadan olmuşdur
9. Cəfərov Nizami Qulu oğlu, filologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü (0,5 ştat - əvəzçi) – 1959-cu ildə anadan olmuşdur
10. Ələkbərova Lətafət Firuddin qızı, filologiya üzrə fəlsəfə doktoru, böyük laborant – 1970-ci ildə anadan olmuşdur

## 3. KAFEDRADA APARILAN ELMİ-TƏDQİQAT İŞLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ, ADI, SAYI, QISA ANNOTASİYASI, YERİNƏ YETİRİLMƏSİ.

**2016-ci ildə Ümumi dilçilik kafedrasının əməkdaşları «Dillərin təsnifi» adlı ümumi üçillik mövzunun 9 işi – üzərində çalışıblar. İstiqamət: Dil nəzəriyyəsi.**

**Problem: Dilin nəzəri problemləri. Planlaşdırılmış mövzulardan aşağıdakılar yerinə yetirilmişdir:**

İş: «Müqayisəli-tarixi dilçilik»

İcraçı: prof. Ə.Ə.Rəcəbli

Mərhələ II: “Daxili və xarici bərpa”

Plan işinin “Dillərin ohumluğunu sübutetmə prinsipləri”, “Boppun aqqlütinasiya nəzəriyyəsi” və “XIX əsrin ortalarında müqayisəli-tarixi dilçilik” hissələrini yazmışdır. Birinci iki hissə sırf nəzəri məsələlərə həsr olunmuşdur, ikinci hissədə XIX yüzilliyin ikinci yarısında fəaliyyət göstərmiş görkəmli komparativistlərdən Avqust Fridrix Pott, Teodor Benfey, Adalbert Kun, Georq Kursius, Avqust Şlayxer, İohan Şmidt və başqalarının yaradıcılığı haqqında danışılır. Xüsusən görkəmli dilçi Avqust Şlayxerin (müxtəlif) nəzəriyyələri geniş şəklidə araşdırılmışdır.

İş: «Müqayisəli-tipoloji dilçilik»

Mərhələ II: « Flektiv dillər »

İcraçı: dosent Ş.V.Qasımova

Flektiv dil fleksiya üsulu üzdə sözdəyişmədən istifadə edən dildir. Bu dillərdə hər fleksiya bir neçə qrammatik mənanın ifadəçisi ola bilir. Flektiv dillər ilk növbədə sözün dəyişməsini nəzərdə tutur, sözün səs cildinin dəyişməsi onun əsas əlamətidir. Belə dillərdə sözün dəyişməsi iki yolla – xarici və daxili fleksiya yolu ilə olur. İlk tipoloji təsniflər əslində morfoloji təsniflər olmuşdur. Müasir dilçilikdə isə ən yeni kvantitativ metoddan istifadə edilir. Hazırda dillərin tipologiyası problemi öz həllini tam tapmayıb. Onun, dəqiq nəzəri və təsviri tədqiqatlara ehtiyacı var.

İş: «Tipoloji dilçilik»

Mərhələ II: “Morfoloji tipologiya”

İcraçı: dosent M.T.Məmmədov

Plan üzrə 2016-cı tədris ili üçün nəzərdə tutulmuş “Morfoloji tipologiya” adlı elmi-tədqiqat işində dillərin tipoloji təsnifi məsələləri öyrənilir. Elmi işdə morfoloji tipologiyanın xarakterik xüsusiyyətləri aydınlaşdırılır, bu baxımdan fərqləndirilən dil tiplərinin əsasında sözün morfoloji quruluşundakı keyfiyyət fərqlərinin dayandığı

göstərilir. Elmi-tədqiqat işində tipoloji tədqiqatlarda özünə yer tapmış dilin kamilliyi məsələsinə münasibət bildirilir, problemin qoyuluşu aydınlaşdırılır, türk dilləri bu baxımdan qiymətləndirilir.

İş: «Müqayisəli-tipoloji dilçilik»

Mərhələ II: « Flektiv dillərdə diffuziya »

İcraçı: dosent C.X.Muradov

Flektiv dillərə əksər afrasiya və Hind-Avropa dilləri daxildir. Bu dillər bir sıra səciyyəvi xüsusiyyətlərə malikdir ki, bunlardan biri də fuziyadır. Fuziya çoxmənalı, qeyri-standart, dəyişə bilən şəkilçilərin köklə qovuşmasına, birləşməsinə deyilir. Tədqiqat işində flektiv dillərin xüsusiyyətləri göstərilir, fuziyanın mahiyyəti izah olunur, bu hadisəyə aid misallar verilir.

İş: «Müqayisəli-tipoloji dilçilik»

Mərhələ II: «Morfoloji tipologiyanın inkişaf mərhələləri »

İcraçı: baş müəllim F.N.Mehdiyev

Linqvistik tədqiqatlarda morfoloji tipologiyanın tədqiqatına  geniş yer verilmişdir. Antik dövrlərdən bəri ənənəvi olaraq sözə dilin bölünməz vahidi kimi baxmışlar. XIX əsrin sonlarına yaxın morfoloji sistem haqqında görüşlər dəyişir. Əsas, prefiks, postfiks, fleksiya anlayışları dəqiqləşir. Aydınlaşdırılır ki, morfologiyanın predmeti dildə qarşılıqlı münasibətlərin öyrənilməsidir.

İş: “Müqayisəli-tarixi dilçilik

Mərhələ II: “Bərpa üsulları”

İcraçı: Fil.ü.f.d., baş müəllim E.H.Həmzəyeva

Bildiyimiz kimi, dil, olduqca mürəkkəb bir ictimai hadisədir və ətraf mühiti əhatə edən əşya və hadisələri inikas etdirir. Bu səbəbdən də dilin hərtərəfli təsvirini vermək üçün onun daxili və xarici xüsusiyyətlərini araşdırmaq zəruridir. Elmi işdə də dilin həm xarici əlamətlərini öyrənmə üsulları (sosioloji, məntiqi, psixoloji, distributiv və s.), həm də dilin daxili əlamətlərini öyrənmə üsulları (təsnifat, sistemləşdirmə, mövqe və qarşı-qarşıya qoyma, paradiqmalar, müstəqim tərtibçilər, sintaktik tərtib və s.) nəzərdən keçirilir.

İş: “Müqayisəli-tarixi dilçilik”

Mərhələ II: “Latın dili”

İcraçı: baş müəllim S.Ə.Məmmədova

Latın dilindəki bağlayıcılar, adətən, mənasına görə bir neçə növə bölünür. Lakin qeyd etmək lazımdır ki, bağlayıcıların məna ifadələri bunula bitmir. Onların çoxu mürəkkəb cümlələrin bir birinə bağlanmasında böyük rol oynayır.

İş: Müqayisəli-tarixi dilçilik

Mərhələ II: “Latın dili”

İcraçı: baş müəllim C.M.Əliyeva

Roman dilləri eyni kökə malik olan dillər qrupundan ibarətdir: onların hamısı latın dilinin danışıq dil formasından yaranmışlar. Roman dillərində İspaniyanın, İtaliyanın, Portuqaliyanın, Fransanın, Rumıniyanın və bundan başqa Latın Amerikasının əhalisi danışır. Bir sıra Afrika ölkərində də roman dillərində danışılır. Roman dillərinin sayına gəldikdə bu hələ də mübahisəli haldır, çünkü «dil» və «dialekt» anlayışı arasında lazımı qədər fərq yoxdur. Roman dilçiliyi tarixində roman nitqinin müxtəlif formalarını sərbəst dil qrupuna aid edilməsi üçün müxtəlif meyarlar irəli sürülmüşdü. Hal-hazırda dil vahidinin sosiolinqvistik statusu və onun tarixi inkişafı meyarı daha cox qəbul olunmuşdur. Roman dilləri iki böyük yarımqrupa ayrılır: qərbi və şərqi dil qrupları. Bu bölgü hələ XIX əsrdə Fridrix Dits tərəfindən irəli sürülmüşdür. Təsnifat yalnız 6 roman dilinə-ispan, portuqal (cənubi qərb), fransız və provansal (şimali qərb), italiyan və rumın (şərq qrupu) aid idi.

## 4. DƏRC OLUNMUŞ ELMİ İŞLƏRİN XARAKTERİSTİKASI.

### Kitablar:

### Prof. Ə.Ə.Rəcəbli:

1. “İngilis dilində modal feillər” (Bakı, “Elm və Təhsil” nəşriyyatı, 2016, 238 s.)
2. “London struktur dilçilik məktəbi” (Bakı, “Elm və Təhsil”, 2016, 56 s.)
3. Deskriptiv dilçilikdə fonologiya və qrammatika problemləri. (Bakı, “Elm və Təhsil” nəşriyyatı, 2016, 88 s.)
4. Qədim ərəb dilçiliyi. (Bakı, “Elm və Təhsil” nəşriyyatı, 2016, 168 s.).

5. Dil strukturunun səviyyələri. (Bakı, “Elm və Təhsil” nəşriyyatı, 2016, 28 s.) (metodik göstəriş)

**Məqalələr:**

**Dosent M.T.Məmmədov:**

1. Dil tipləri: dilin kamilliyi məsələsi. / Birinci Türkoloji Qurultayın 90 illik yubileyinə həsr olunmuş “Müasir türkologiya: dünən, bu gün və sabah (problemlər və perspektivlər)” mövzusunda Respublika elmi konfransının materialları

**Dosent Ş.V.Qasımova:**

1. Əli Tudə şeirlərində mübarizlik motivləri. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş “Filologiyanın aktual problemləri” mövzusunda Respublika elmi-nəzəri konfransının materialları. Bakı, 18-19 may 2016-cı il, XIX kitab. B., “Bakı Universiteti” Nəşriyyatı, 2016, s.408-411

**Dosent C.X.Muradov:**

1. “Kompüter” konsepti dünyanın dil mənzərəsində. / Birinci Türkoloji Qurultayın 90 illik yubileyinə həsr olunmuş “Müasir türkologiya: dünən, bu gün və sabah (problemlər və perspektivlər)” mövzusunda Respublika elmi konfransının materialları

**Baş müəllim F.N.Mehdiyev:**

1. Morfoloji tipologiyanın inkişaf mərhələləri. // “Dil və Ədəbiyyat”, № 1 (93), 2016

**Baş müəllim S.Ə.Məmmədova:**

1.Latın dilində önlüklər. // “Dil və Ədəbiyyat”, № 1 (93), 2016

**Baş müəllim C.M.Əliyeva:**

1. Latın dilinin sustratlar nəzəriyyəsi. // “Dil və Ədəbiyyat”, № 5 (97), 2016

**5. QRANTLAR ƏSASINDA YERİNƏ YETİRİLƏN ELMİ-TƏDQİQAT İŞLƏRİ:**

5.1. Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondu ilə əlaqələr

5.2. Respublika daxili qrantlar:

Hesabat dövrü ərzində kafedranın dosenti C.X.Muradova “50+50” proqramı çərçivəsində “Kompüter terminologiyası” mövzusunda layihəyə gör qrant ayrılmışdır.

5.3. Beynəlxalq qrantlar.

## 6. AMEA İLƏ ELMİ ƏLAQƏLƏR

Kafedra müəllimləri AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu ilə mütəmaddi əməkdaşlıq edirlər. Ümumən AMEA-nın respublika səviyyəli tədbirlərinə dəvət olunurlar. Kafedranın bütün müəllimləri Nəsimi adına Dilçilik İnstitutunun elmi məcmuəsində və keçirdiyi konfranslarında məruzələrlə çıxış edir, məqalələr çap etdirirlər. 2016-cı ilin oktyabr-noyabr aylarında AMEA-nın təşəbbüsü ilə keçirilən Elm Festivalında prof. Ə.Ə.Rəcəblinin yeni çap olunmuş kitabları sərgidə nümayiş olunmuşlar.

## 7. XARİCİ DÖVLƏTLƏRİN TƏHSİL VƏ ELMİ MÜƏSSİSƏLƏRİ İLƏ ƏLAQƏLƏR.

7.1.Elmi-texniki əməkdaşlıq – yoxdur;

7.2. Beynəlxalq konfranslarda, konqreslərdə və simpoziumlarda iştirak:

**Fil.ü.f.d., b/m E.H.Həmzəyeva:**

1. 2016-cı ilin oktyabr ayında Türkiyənin Elazığ şəhərində yerləşən Fırat Universitetində "I Uluslararası Sosyal Bilimler Sempozyumu"nda iştirak etmiş və bölmə sədri olmuşdur.

7.3 Beynəlxalq proqramlar üzrə təkliflər – yoxdur;

7.4. Xaricdə çap edilmiş məqalələr:

**Fil.ü.f.d., b/m E.H.Həmzəyeva:**

1. Müqayisəli-tarixi dilçiliyin yaranması. / "I Uluslararası Sosyal Bilimler Sempozyumu"nun materialları. 2016, dekabr

7.5. İmpakt-faktoru jurnallarda dərc olunan məqalələr haqqında məlumat – yoxdur.

## 8. ELMİ-TƏDQİQAT İŞLƏRİNİN NƏTİCƏLƏRİNİN TƏTBİQİ

8.1. Dövlət və özəl strukturlarda tətbiq olunmuş elmi nəticələr:

Kafedranın müəllimlərinin yazıb çap etirdiyi dərslik, dərs vəsaiti və proqramlardan başqa ali məktəblərdə istifadə olunur. O cümlədən prof. Ə.Ə.Rəcəblinin 2016-cı ildə çapdan çıxmış "İngilis dilində modal feillər", "London struktur dilçilik məktəbi", "Qədim ərəb dilçiliyi", "Deskriptiv dilçilikdə fonologiya və qrammatika problemləri" və "Dilin struktur səviyyələri" monoqrafiyalarından digər dövlət və özəl ali məktəblərin

müəllimləri yaralanırlar. Prof. Ə.Ə.Rəcəbli fakültədə çap olunan beynəlxalq “Dil və ədəbiyyat” juurnalının redaksiya heyətinin üzvüdür.

8.2. Təhsildə elmi-tədqiqat işlərinin nəticələrinin və informasiya texnologiyasının tətbiqi. Elmi-tədqiqat işlərinin səmərəliliyi:

Elmi-tədqiqat işlərinin nəticələrindən isə magistratura bölməsində mühazirə mətnləri və dərs vəsaitləri kimi istifadə olunur.

8.3. İstehsalatda tətbiq üçün hazır olan texnologiyalar haqqında məlumat – yoxdur.

**9. PATENT VƏ İNFORMASİYA İŞLƏRİ –** yoxdur.

**10. DÖVLƏT PROQRAMLARININ İCRASI:**

10.1 «Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyası;

10.2 «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası»

10.3 «Azərbaycan Respublikasında sənayesinin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı»

10.4 «Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı»:

Bakı Dövlət Universitetində Azərbaycan dilinin tətbiqinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramına uyğun olaraq tədris edilən “Azərbaycan dili və nitq mədəniyyəti” fənninin öyrənilməsində kafedranın müəllimlərinin müəyyən rolu vardır. Belə ki, kafedrada çalışan baş müəllim S.Ə.Məmmədova, baş müəllim C.M.Əliyeva və baş müəllim E.H.Həmzəyeva bu fənnin tədrisi ilə məşğul olurlar.

**11. FAKÜLTƏDƏ KEÇİRİLMİŞ ELMİ KONFRANSLARIN, SEMİNARLARIN, SİMPOZİUMLARIN XARAKTERİSTİKASI**

2016-cı ildə filologiya fakültəsində bir neçə konfrans keçirilmişdir. Belə ki, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü ilə bağlı keçirilmiş respublika konfansında, akademik Tofiq Hacıyevin 80 illiyi bağlı konfansda və I Türkoloji Qurutayın 90 illiyi ilə bağlı konfansda kafedranın müəllimləri məruzəçi olmuşlar.

## 12. FAKÜLTƏDƏ ELMİ VƏ ELMİ-PEDAQOJİ KADRLARIN HAZIRLANMASI

Kafedra elmi və elmi-pedaqoji kadrların hazırlanmasında fəal iştirak edir. 1nəfər qiyabi: Cumayeva Nuranə Rəfayıl qızı "V.fon Humboldt bəşər dillərinin quruluşunun müxtəlifliyi və bunun bəşəriyyətin mənəvi inkişafına təsiri"; 2 nəfər əyani: Hümmətova Təranə Cəfər qızı "Dilin və nitqin vahidləri" və Quliyeva Ülviyyə Sahib qızı "Dil əlaqələri" mövzularında müdafiə edib magistr dərəcəsinə layiq görülmüşlər

2016-cildə kafedranın professoru Ə.Ə.Rəcəblinin 2 dissertantı – Qaraşova Yeganə Musa qızı " İngilis dilində modal feillər və onların Azərbaycan dilində ifadə vasitəsi" və Qarayeva Şəhla Adışirin qızı "İngilis dili dərsliklərinin linqvo-metodik dəyərləndirilməsi" mövzusunda filologiya üzrə fəlsəfə doktoru dissertasiyaları müdafiə etmiş, 2 dissertantı – Məmmədova Elmira Qalası qızınının "Müxtəlifsistemli dillərdə sifətin sintaktik funksiyaları" mövzusunda və Zeynalova Səbinə İslam qızının "Müxtəlifsistemli dillərdə sifətin sinonimliyi" mövzusunda fəlsəfə doktoru müzakirə edilərək müdafiəyə buraxılmışdır. Hesabat ili ərzində dosent Məmmədov Məhəmməd Tofiq oğlu Hüseynova Gülsüm İsrafil qızının "Azərbaycan tatlarının dlinin leksikası (müqayisəli tədqiqat)" mövzusunda yazdığı filologiya üzrə elmlər doktoru, Ağamirzəyeva Esmira Həmzəağa qızının "Milli dillərin termin yaradıcılığında alınmalar (Azərbaycan və ingilis dilləri materialları əsasında)" mövzusunda yazdığı, Süleymanova Xatirə Etibar qızının "Dilçiliyin inkişafında valentlik nəzəriyyəsi" mövzusunda yazdığı, Mədətova Nigar Aydın qızının "İnformasiyanın formalaşması və natiqlik məharətinə üslubi nöqteyi-nəzərdən baxış (Azərbaycan, rus və ingilis dilləri materialları əsasında)" mövzusunda yazdığı filologiya üzrə fəlsəfə doktoru, dosent Qasımova Şəkər Vəli qızı Qocayeva Şüküfə Kamran qızının "Dildə tabu hadisəsi" mövzusunda yazdığı filologiya üzrə fəlsəfə doktoru dissertasiyalarına əlavə rəy vermişlər.

## 13. DİSSERTASİYA MÜDAFİƏSİ VƏ İXTİSASLAŞDIRILMIŞ ŞURALARIN FƏALİYYƏTİ

Kafedranın professoru Rəcəbli Ə.Ə. BDU-nun filologiya fakültəsində fəaliyyət göstərən D.02.181 Dissertasiya Şurasının üzvüdür. Həmçinin dos. M.T.Məmmədov və

fakültənin humanitar işləri üzrə dekan müavini dos. C.X.Muradov fakültə Elmi Şurasının üzvləridir. Dos. C.X.Muradov D.02.181 Dissertasiya Şurasının nəzdindəki Elmi Seminarın üzvüdür.

**14. TƏLƏBƏLƏRİN VƏ GƏNC TƏDQİQATÇILARIN (MAGİSTRLƏRİN) ELMİ-TƏDQİQAT İŞLƏRİ (KONFRANSDA İŞTİRAKI)**

Kafedranın magistr və bakalavr pillələrində oxuyan tələbələr vaxtaşırı «Azərbaycan filologiyasının aktual problemləri» adlı məcmuədə öz elmi məqalələrini çap etdirirlər. Eyni zamanda onların çıxışları, məruzə və tezisləri fakültədə buraxılan digər elmi nəşrlərdə də çap olunur. Kafedra üzrə müdafiə edən magistrlərin aşağıda qeyd olunan məqalələri çap edilmişdir:

1. Hümmətova T. Dilçilikdə dil vahidləri məsələsi/ Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Filologiyanın aktual problemləri" mövzusunda Respublika elmi-nəzəri konfransının materialları. Bakı, 18-19 may 2016-cı il, XIX kitab. B., "Bakı Universiteti" Nəşriyyatı, 2016, s.401-404
2. Hümmətova T. Dilçilikdə dil və nitq problemi / Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Filologiyanın aktual problemləri" mövzusunda Respublika elmi-nəzəri konfransının materialları. Bakı, 18-19 may 2016-cı il, XIX kitab. B., "Bakı Universiteti" Nəşriyyatı, 2016, s.404-406
3. Quliyeva Ü. Bilinqvizm. / Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Filologiyanın aktual problemləri" mövzusunda Respublika elmi-nəzəri konfransının materialları. Bakı, 18-19 may 2016-cı il, XIX kitab. B., "Bakı Universiteti" Nəşriyyatı, 2016, s.406-408
4. Quliyeva Ü. Dillərin kontaktı. / Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Filologiyanın aktual problemləri" mövzusunda Respublika elmi-nəzəri konfransının materialları. Bakı, 18-19 may 2016-cı il, XIX kitab. B., "Bakı Universiteti" Nəşriyyatı, 2016, s.408-411

**15. 2017-ci İLDƏ HANSI AVADANLIQLARININ ALINMASINA EHTİYAC DUYULUR (ADI, ALINACAQ AVADANLIQLARININ SAYI, TƏXMİNİ QİYMƏTİ, manatla):**

Kafedrada tədrisin və elmi–tədqiqat işlərinin yüksək səviyyədə keçirilməsini təşkil etmək üçün kafedranın aşağıdakı texniki avadanlıqla təhcizatına ehtiyac vardır: 2 ədəd şkaf, 4 müəllim stolu, 1 kompüter stolu, 1 iclas stolu və 1 jalyüz.

## 16. ƏSAS NƏTİCƏLƏR VƏ TƏKLİFLƏR

Kafedra əməkdaşlarının 1 illik elmi-pedaqoji fəaliyyəti qənaətbəxş hesab oluna bilər. Prof. Ə.Ə.Rəcəblinin 2016-cı il mayın 6-da 80 yaşı tamam olmuşdur. Professorun bu yubileyi və elmi-pedaqoji fəaliyətinin 60 illiyi münasibətilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən "Qabaqcıl təhsil işçisi" döş nişanı, eləcə də Bakı Dövlət Universitetinin Fəxri Fərmanı təqdim edilmişdir. Kafedranın dosenti C.X.Muradova Azərbaycan Respublikasında Rusiya əməkdaşlığı nümayəndəsinin Azərbaycanda fəaliyyət göstərən "Alimlər – uşaqlar üçün" proyektdəki iştirakına görə təşəkkür bildirilmişdir.

"Azərbaycan dili və nitq mədəniyyəti" fənninin BDU-nun bütün fakültələrində, həm də filologiya fakültəsində tədrisini nəzərə alaraq "Nitq mədəniyyətinin nəzəriyyəsi" adlı bir kursun kafedranın tədris planına salınması məqsədəuyğun olardı. "Nitq mədəniyyəti və üslubiyyatın əsasları" fənni "Azərbaycan dilçiliyi" kafedrasından daha çox nəzəri kafedra olan "Ümumi dilçilik" kafedrasının statusuna daxildir. Həmin fənnin tədrisinin "Ümumi dilçilik" kafedrasına həvalə edilməsi məqsədəuyğundur.

**Ümumi dilçilik kafedrasının**

**müdiri əvəzi:** **prof.Ə.Ə.Rəcəbli**